**Ağakişiyeva Şükûfə Məhəmməd qızı**
Bakı Slavyan Universiteti

# İBTİDAİ SİNİFDƏ NİTQ İNKIŞAFI ÜZRƏ İŞLƏR

***Açar sözlər:*** *nitq inkişafı, ibtidai sinif, Azərbaycan dili dərsləri, yazılı nitq, şifahi nitq, leksik nöqsanlar*
***Keywords:*** *speech development, primary school, Azerbaijani language lessons, written speech, oral speech, lexical shortcomings*
***Ключевые слова:*** *развитие речи, начальные классы, уроки азербайджанского языка, письменная речь, устная речь, лексические ошибки*

Məktəbə qədəm qoyan 5 yaşlı şagirdlər xeyli söz ehtiyatına malik olur, müşahidə etdikləri hadisə və əşyalar haqqında fikir yürütməyə az olsa bacarırlar. Ancaq bunu bütün şagirdlərə aid olduğunu iddia etmək, şagirdlərin heç də hamısının lüğət ehtiyatı zəngin olmur, onların bəziləri sərbəst cümlə qurmaq vərdişləri olmur, felin danışmaq zamanları qarışdırır, “dünən” əvəzinə “sabah” sözü işlədirlər. Məhz buna görə də məktəbdə uşağın nitqi üzərində planlı iş aparılır. Deməli, İbtidai siniflərdə Azərbaycan dili üzrə məşğələlərin əsas məqsədi şagirdlərin şifahi və yazılı nitqini inkişa etdirməkdir. Bəs İbtidai siniflərdə şagirdlərin nitqinin inkişafı üzrə iş hansı istiqamətdə getməlidir.

Dil və nitq eyni hadisənin bir-biri ilə sıx əlaqədə olan iki aspektdir. Nitq inkişafı fikrin məntiqi ardıcıllıqla ifadə edilməsinə yönəldilmiş prosesidir.

Uşağın nitqini inkişaf etdirmək nitq orqanlarını məşq etdirmək, dilin leksik və qrammatik qanun və qaydalarının asanlıqla başa düşülməsinə şərait yaratmaq üçün nəzərdə tutulur.

Nitq inkişafından danışarkən ilk növbədə onun düzgünlüyündən söz açılır. Nitqin düzgünlüyü dedikdə isə onun dil normalarına dəqiq əməl olunması nəzərdə tutulur. Amma elə dilçilər var ki, onlar düzgünlüyün kifayət etmədiyini söyləyirlər. onların fikrincə, nitq düzgün ola bilər, ancaq qeyri-dəqiq və ya ziddiyyətli, uzun-uzadı olsun. Ona görə də A.S.Puşkin, L.Tolstoy, V.Belinski və M.Qorki kimi sənətkarlar düzgün danışmaq və yazmaq anlayışı ilə yaxşı yazmaq və danışmaq anlayışı arasında yerlə göy qədər fərq olduğunu başa düşürdülər.

İnsanlar danışarkən dil normalarından düzgün istifadə edirlərsə, deməli dil normaları mənimsənilib. Dil normalarına isə proqrafik, arfoepik, fonetik, leksik, qrammatik və üslubi qaydalar nəzərdə tutulur.

Fonetik normalar sözdəki səslərin düzgün tələffüzü, onların bir-birindən fərqləndirilməsini nəzərdə tutur. Orfoepik normaya uyğun tələffüz isə yazılış qaydasından çox fərqlənir, nitqin səlis və şirin olmasına imkan yaradır.

Şagirdlər aşağı siniflərdən leksik normalarla tanış olur, yeni sözlər öyrənir, əvvəllər eşitdikləri sözlərin məna incəliklərinə bələd olur, nitqləri kəmiyyət və keyfiyyətcə zəngiinləşir. Hər bir söz get-gedə yeni mənaları ilə şagirdi təəccübləndirir.

Statistik qrammatikanın daha çətin və mürəkkəb hissəsi olsa da, onun elementləri ilə tanışlıq I sinifdən başlanır. Cümlənin sözlərdən, söz birləşmələrindən qurulması, intonasiya ilə deyilməsi şagirdlərə ifadəli oxumağı və danışmağı öyrətmək baxımından çox önəmlidir.

Cümlənin qurulmasənd, mənanın dəqiq çatdırılmasında cümlədəki sözlərin sırası, məntiqi vurğu mühüm rol oymnayır. Ilk gündən şagirrdlərə izah olunmalıdır ki, cümlədə sözlərin yeri dəyişdikdə məna dəyişir. Məsələn:

1. Anam mənim dünyada sevdiyim ən əziz insandır.
2. Anam, mənim dünyada sevdiyim ən əziz insandır

Rabitəli mətn qurmaq, fikrini sərbəst çatdırmaq üçün plan qurmağı və fikirlərini həmin plana uyğun danışmağı öyrənməlidir.

Nitq inkişafı məsələlərindən danışarkən şagirdlərin fiziki inkişafını, psixikasındakı dəyişiklikləri də unutmaq olmaz.

Psixoloqlar nitq inkişafı zamanı şagirdlərdə hansı psixoloji proseslərin baş verdiyini müəyyənləşdiriblər. təbii ki, uşaqların nitqi yaşlıların nitqindən fərqlidir. Bu fərqli cəhətlər həm keyfiyyət, həm də kəmiyyət cəhətdən özünü göstərir. Fikrin ifadə forması, ifadə zamanı istifadə edilən leksik vahidlər, fikrin reallığa münasibəti, təmizliyi, ifadəliliyi, danışanın yaş və bilik səviyyəsindən çox asılıdır.

Şagirdlərin nitqinin inkişaf etdirilməsi üzrə işin düzgün təşkili üçün müəllimin şifahi və yazılı nitqin xüsusiyyətlərini bilməsi, nitqin bu formalarının hər birinin özünəməxsus normalarını fərqləndirməyi onlara öyrətmək çox vacibdir. (407)

Şagirdlərin yazılı və şifahi nitqi həm ibtidai, həm də yuxarı siniflərdə eyni səviyyədə inkişaf etmir. Bəzi uşaqlar çox yaxşı şifahi nitqə malik olduqları halda, fikirlərini çəkirlər. bəzi uşaqlar isə ifadə və inşa yazarkən uğur qazandıqları halda, şifahi nitqləri anlaşılmaz, darıxdırıcı qüsurlu olur. Bu isə uşaqların nitq qabiliyyətindəki qüsurlardan, utancaqlığından irəli gəlir.Amma həm yazılı, həm də şifahi nitqi yüksək səviyyədə olan uşaqlara da təsadüf olunur. Bunun səbəbi isə şifahi nitqin əsasında isə eşitmə ilə yanaşı görmə və əl hərəkəti analizatorlarının durmasıdır.

Deməli, biz şifahi nitqi dinləyir, yazılı nitqi isə görürük. Bu isə şagirdlərin oxu, yazı düzgün danışma bacarıqlarının inkişaf etdirməyi gündəmə gətirir.

Şifahi nitq danışanla, dinləyən arasındakı ünsiyyətə xidmət edir. Danışan şəxs çalışır ki, nitqini elə qursun ki, dinləyən onu başa düşsün. Məhz bu cəhət Azərbaycan dilindən kurikulumda məzmun standartlarına daxil edilib. Yazılı nitqdə isə dinləyicinin olması vacib deyildir. Yazı yazarkən leksik vahidlər seçilir, fikrin necə ifadə ediləcəyi götür qoy edilir.

Şifahi nitqdə qısa, müxtəsər cümlələrdən istifadə edilir, daha asan və çoxişlək sözlər seçilir, beynəlmiləl sözlərdən, neologizmlərdən, arxaizmlərdən və terminlərdən istifadədən imtina edilir. Fikrin ifadəsi zamanı danışan şəxsə mimika, jest, əl hərəkətləri, baxışalr, intonasiya, səs tonu kimi köməkçiləri olur.

Şifahi nitqdə eyni fikrə bir neçə dəfə qayıtmaq, cümləni təkrarlamaq, sözləri, ifadələri, mətnin üslubunu dəyişmək mümkündür.

Yazılı nitqdə isə cümlələri təkrar etmək, eyni bir fikrə dönə-dönə qayıtmaq qeyri-mümkündür. Yazılı nitqdə sözləri çox dəqiqliklə seçilir, söz sırasına diqqət yetirilir, məzmun məntiqi ardıcıllıqla verilir.

Şifahi nitq ifadəli olduğundan, sözlərlə yanaşı və mimikadan istifadə imkanı olduğundan yığcamlığı ilə seçilir.

Şifahi nitqdə orfoepik, yazılı nitqdə isə orfoqrafik normalarla əməl olunur.

Məktəb təcrübəsinin öyrənilməsi, aparılan müşahidələr göstərir ki, İbtidai siniflərdə şagirdlərin şifahi nitqi daha çox inkişaf edir, yazılı nitqi isə o qədər də inkişaf etmir. Şifahi nitq yazı nitqi üçün təməl yaradır. Oxu vərdişlərinə yiyələnmiş, düzgün oxuyan şagirdlərin yazılı nitqi də yaxşı olur. Eyni zamanda yazısı mükəmməl olan şagirdlərin şifahi danışığı da diqqəti cəlb edir. Bu fakt bir daha sübut edir ki, nitqin bu iki forması fərqli cəhətlərə malik olsalar da, bir-biri ilə qırılmaz vəhdət təşkil edirlər. Ona görə də nitq inkişafı üzrə iş prosesində hər iki cəhətə diqqət yetirilməlidir.

Şifahi və yazılı nitq əslində xarici nitqdir, real hadisələrdir. Ancaq bəzən insanlar hər hansı məsələ barədə səssiz fikirləşir. Bu, onun daxili nitqidir.

Müəllim öz sualları, söhbətləri, müşahidələrin təşkili əsasında şagirdlərin rabitəli nitqinin məzmunlu, məntiqli, dəqiq və düzgün olmasının qayğısına qalmalıdır.

Dioloji və monoloji nitq "saf, təmiz" halda deyil, bir-birinə qovuşmuş tərzdə meydana çıxır. Ona görə də biz şagirdlərin nitqinin xüsusiyyətlərindən danışarkən həm monoloji, həm də dioloji nitqdə təsadüf etdiyimiz səciyyəvi cəhətdən bəhs etməyi lazım bildik.

Məktəbə ilk dəfə qədəm qoyan uşaqların fiziki unkişafı müxtəlif olur. Bu müxtəliflik onların nitqinə təsirsiz ötüşmür. Uşaqların fiziki inkişafındakı gerilik onların əhval-ruhiyyəsinə mənfi təsir göstərmiş olur. Onların ətraf aləmlə öz həyatları haqqında danışmağa marağı azalır, bilik əldə etməyə olan həvəsləri sönür.

Bəzi uşaqlarda eşitmə qabiliyyəti normal inkişaf etmədiyindən bir sıra danışıq səslərini (ş-s, r-y, r-l, g-d, y-h, və s.) fərqləndirə bilmirlər. Nəticədə onlar bəzi sözləri düzgün tələffüz etmirlər. Məsələn: aşdı-asdı, yaxşı-yaxsı, qazan-dazan, Səkinə-Zəkinə, səki-zəki və s. Bunun nəticəsində mətnin məzmunu təhriz olunur.

Bu tip nöqsanlar bəzən şagirdin eşitmə qabiliyyətinin zəifliyi ilə bağlı olmur, əksinə nitq qüsuru hesab edilən kəkələmə, pəltəklik və tıntınlıqla əlaqədar meydana çıxır.

Kiçikyaşlı məktəblilərin təfəkkürü konkret olur, mücərrdə məfhumlar,yaxud isimləri dərk etməkdə çətinlik çəkirlər.

Məsələn, kiçikyaşlı uşaqlara ikinin üstünə iki gələndə neçə olur sualına cavab verməkdə çətinlik

Lər halda, "Evdə iki uşaq var, ikisi də qonaq gəldi. Evdə neçə uşaq oldu?" sualına çətinlik çəkmədən "4" cavabını verirlər. Uşaqlar tədricən mücərrəd hadisələri dərk etməyə başlayırlar. Lakin onlar gördükləri əşya və hadisələri təhlil etmək, onların fərqli və oxşar cəhətlərini "görmək" vərdişlərinə malik olmurlar.

Uşaqların yaddaşı möhkəm olur, onlar gördüklərini, eşitdiklərini uzun müddət xatırlayırlar. Baxmayaraq onların diqqətləri zəif olduğundan tez yorulur, bir işlə uzun müddət məşğul ola bilmirlər.

Altı yaşlılar çox mütəhərrik olmaqlarına baxmayaraq yeknəsəq iş nəticəsində tez yorulurlar, diqqətləri yaınır. Psixi proseslər, yaradıcılı, diqqətsiz mümkün deyil. Insanın həyatında diqqətin rolundan bəhs edən K.D.Uşinski yazırdı: "Diqqət ruhumuzun elə bir qapısıdır ki, şüurumuzda olan hər bir şey bu qapıdan gəlib

keçir". Ona görə də müəllimlər uşaqların bu qapını daim açıq saxlamasına çalışmalıdırlar. Bunsuz təlim prosesində uğur qazanmaq olmaz.

Altıyaşlıların diqqəti qeyri-ixtiyari, davamsız olur. Onların diqqəti kənar qıcıqlandırıcıların təsiri ilə tez-tez yayınır. Onlar diqqətini uzun müddət müəyyən əşya və hadisə üzərində saxlaya bilmir, müəllimi dinləmək üçün böyük qüvvə sərf etməli olurlar, nəticədə tez yorulurlar. Bütün bunların nəticəsi olaraq onlar dərsdə tez-tez o yan-bu yana çevrilir, yoldaşları ilə söhbərt edirlər.

Uşaqların nitqinin inkişafına onların yaşadığı mühit, yerli dialektlər, kütləvi informasiya vasitələri və s. mühüm təsir göstərir. Aparılan müşahidələr göstərir ki, şəhərdə yaşayan uşaqlara kənd həyatı, kənd təsərrüfatı, kənddə yaşayan uşaqların isə şəhər həyatı haqqındakı təsəvvürləri çox bəsit olur. Coğrafi şəraitlə əlaqədar olaraq uşaqların təsəvvürlərinin azlığı onların dünyagörüşünün darlığından inkişaf səviyyəsinin aşağı olmaından irəli gəlir. təbii ki, bu, şagirdlərin nitqinin zəifliyinə, lüğət ehtiyatının kasadlığına səbəb olur.

Uşaqların nitq xüsusiyyətlərini öyrənmək üçün müəllimlər diaqnostik qiymətləndirmə üsulundan istifadə etməli, onların çox ehtiyatının həddini müəyyənləşdirməli, cümlə qurmaq bacarıqlarını təkmilləşdirməli, lüğət ehtiyatının dialektizmlərdən vulqar sözlərdən tənzimlənməsinə nail olmalıdırlar.

Respublikamızda son 30 ildə baş verən ictimai, siyasi dəyişikliklər torpaqlarımızın işğalı, soydaşlarımızın öz yurd-yuvalarından didərgin düşməsi, nəticədə qərb zonasından olan vətəndaşların şərq rayonlarında xüsusilə də Bakı və Abşeron yarmadasındakı şəhər və qəsəbələrdə məskunlaşması məktəblərimizdə şagird kontingentinin müxtəlif zonalardan olan uşaqlar əsasında təşkil olunmasına səbəb oldu. Müəllimlər müxtəlif dialektlərdə danışan uşaqlarla iş aparmalıdir, hər uşaqla fərdi məşğul olmaq məcburiyyətində qalırlar. Buna görə də müəllimlər dərs ilinin əvvəlində müxtəlif əşyaların şəkillərini göstərib adlarını soruşmaqla, sujetli şəkillərə baxıb cümlə, şeir, hekayə qurdurmaqla onların nitqlərinin xüsusiyyətlərini öyrənirlər.

Müxtəlif tədqiqatlar, müşahidələr, müəllimlərlə aparılan söhbətlər göstərdi ki, şagirdlərin nitqi aşağıdakı xüsusiyyətlərə malikdir.

Kiçikyaşlı məktəblilərin nitqi öyrənildikdə məlum olur ki, onların hər birinin öz lüğət ehtiyatı, öz təsəvvürü, aləmi var. Ona görə də müəllim bu və ya digər sözün hər bir uşaq tərəfindən işlədilmə xüsusiyyətini aşkara çıxarmağa çalışmalıdır. Yalnız bu zaman o, həmin şagirdlərlə nə kimi lüğət işi aparacağını müəyyənləşdirə bilər.

Şagirdlərin lüğət ehtiyatının zənginliyini yalnız onların nitqindəki sözlərin sayına əsasən müəyyənləşdirmək olmaz. Həmin sözlərin mənasının şagirdlər tərəfindən necə başa düşülməsi, sözlərin məna çalarlarından nitq praktikasında necə istifadə olunması da nəzərə alınmalıdır. 70-ci illərin tədqiqatları göstərmişdir ki, I sinif şagirdlərinin lüğət ehtiyatına 40150 söz daxildir. Bunlardan yalnız 2177-si şagirdlərin fəal lüğətinə daxil olan sözlərdir. Deməli, şagirdlərin eşitdiyi sözlərdən çox mənasını dəqiq bilmirlər. Ancaq bu sözləri çox nadir halda işlədirlər. Əlbəttə, göstərilən rəqəmlər XXI əsrin II onilliyində tamamilə fərqli olacaqdır. Indi uşaqlar daha çox söz bilirlər, yaşlıların işləmədikləri sözləri lüğət ehtiyatına "toplayırlar". Amma bu sözlərdən xeyli hissəsinin qeyri-fəal lüğətə daxil olduğu danılmazdır.

Kiçikyaşlı məktəblilərin təfəkkürü konkret olur. Məhz buna görə də onların işlətdikləri sözləri hadisələrin adlarından ibarət olur. Amma adını bildikləri əşyalar haqqında çox vaxt təsəvvürləri olunur. Bəzən isə əksinə. Uşaqların müəyyən əşya haqqında aydın təsəvvürü olur, lakin onun adını bilmir, yaxud da adını unudurlar.

İbtidai siniflərdə şagirdlərin lüğətinin mühüm xüsusiyyətlərindən biri ümumiləşdirmə ilə təsəvvüretmə arasındakı fərqi aydın təsəvvür etməklə bağlıdır. Şagirdlər, adətən, cins və növ anlayışlarını fərqləndirməkdə çətinlik çəkirlər. Məsələn, mebel-şkaf, vəhşi-şir, quş-qartal.

Şagirdlərin nitqində sözün mənasının genişlənməsi hallarına da tez-tez rast gəlmək olur. Məsələn, moruq deyəndə mər moruq, həm də böyürtkən , traktor deyəndə həm bulduzer, həm də ekskavator nəzərdə tutulur.

Beləliklə, şagirdlərin nitqindəki leksik nöqsanları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Sözün mənasını bilməməkdən irəli gələn səhvlər;
2. Sözün mənasını daralatmaqla bağlı səhvlər;
3. Sözün mənasını genişləndirilməsi ilə bağlı səhvlər;
4. Sözün yerinə də dəqiq mənada işlənməsi ilə bağlı səhvlər (beş dənə şagird, iki dənə kostyum);
5. Çoxmənalı sözlərin məqamında işlənməməsi ilə bağlı səhvlər;
6. Omonimlərdən düzgün istifadəolunmaması ilə bağlı səhvlər;
7. Paronimləri qarışıq salmaqla bağlı səhvlər;

8. Yaxınmənalı sözləri qarışdırmaqla bağlı səhvlər;
9. Kobud, qeyri-ədəbi sözlərin işlədilməsi ilə bağlı səhvlər;
10. Xarici dillərdən alınma sözlərin işlədilməsi ilə bağlı səhvlər;
11. Həm səslənməsinə, həm də mənasına görə çox yaxın olan sözlərin işlənməsi ilə bağlı səhvlər; (hərəkər-hərakat, vərəqə-vərəq və s.)
12. Növlə cinsi qarışdırmaqla bağlı səhvlər;
13. Sözün ədəbi dildə qəbul olunmamış formada işlədilməsi ilə bağlı səhvlər; (dünənnən, tezdənnən və s.)
14. Cümlədə söz sırasının pozulması;
15. Artıq sözlərin işlədilməsi;
16. Təkrarlara yol verilməsi;
17. Əsas fikrin unudulması;
18. Məzmunun tam açılması;
19. Fikrin yarımçıq qalması;
20. Orfapik normaların pozulması ilə bağlı səhvlər.

Bu nöqsanların hər bir tipi müəllimlərin diqqətindən yayınmamalı, onların aradan qaldırılması və qarşısının alınması ilə bağlı işlərin sistemli aparılmasına çalışmalıdır.

## Ədəbiyyat:

1. Abdullayev N., Məmmədov Z. Nitq mədəniyyətinin əsasları. Bakı
2. Balıyev H., Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, Qismət. 2014
3. Əfəndizadə Ə. Azərbaycan dili təliminin səmərəli təşkili məsələsinə dair. Azərbaycan dili və ədəbiyyatı tədrisi. 1990 № 1
4. Əhmədov B. Şagirdlərin lüğət ehtiyatını zənginləşdirmək təcrübəsindən, "Azərbaycan məktəbi" Bakı, 1964, № 9
5. Əhmədov B. Uşinski və müasir pedaqogikanın bəzi məsələləri. Azərbaycan məktəbi, Bakı. 1974 № 1
6. Həsənov F. şagirdlərin şifahi nitqinin inkişaf etdirilməsi yolları. Azərbaycan dili və ədəbiyyatı tədrisi. 2002 № 1
7. Tağıyeva Ə. Nitq inkişafı üzrə işlərin səmərəli təşkili təcrübəsindən. Azərbaycan dili və ədəbiyyatının tədrisi. 1990 № 1

## Work on primary speech development

**Summary**

Speech development is a process driven by a logical sequence of ideas. Developing a child's speech is designed to train speech organs, to help to understand the lexical and grammatical rules of the language easily. Students get acquainted with the lexical norms while being in primary classes, learn new words, understand the meaning of the words they have heard before, the quantity and quality of their speeches enrich as well . While studying the speech of younger children, it becomes clear that each of them has their own vocabulary, imagination and the world. Therefore, the teacher should try to expose the nature of the use of this or that word for each child. Only in this case he (she) can determine what kind of vocabulary he (she) will teach those students.

## Работа по развитию речи в начальных классах

**Резюме:**

Развитие речи – это процесс, связанный с передачей мысли в логической последовательности. Развитие речи ребенка необходим для развития его органов речи, объяснения в доступной форме основных норм и законов языка. В начальных классах ученики начинают знакомиться с лексическими нормами языка, познают новые значения ранее знакомых им слов, также идет процесс обогащения их словарного запаса и в плане качества и количества. При изучении речевых навыков учеников начальных классов выявляются их индивидуальные особенности. Эти особенности связаны с тем, что их представления о мире различны. Поэтому в задачи учителя входит выявление этих особенностей, которые например проявляются в различном понимании и восприятии слов со стороны учеников. Только в этом случае учителю удастся эффективно вести работу по развитию их речи.

**Rəyçi: dos. Ş.M.Məmmədov**